

**Adil**
**CƏMİL**

# Qala qapısında ağlayan qarı

*Qala qapısında ağlayan qarı,*
*Bəlkə ağlayırsan öz keçmişinə,*
*Bəlkə ağlayırsan qız keçmişinə -*
*Yadına düşübdü qız yaşın sənin,*
*O yaşdan yol gəlir göz yaşın sənin?..*

*Qala qapısında ağlayan qarı,*
*Bəlkə sevdiyinin ruhu burdadır,*
*Bəlkə hey gördüyün yuxu burdadır?*

*Bilmirəm, bilmirəm, ay qarı nənə*
*Kimə ağlayırsan, nəyə yanırsan,*
*Yanığın yoxdusa niyə yanırsan?*

*Qısılıb qalanın divarına sən*
*Özün boğulursan öz "yağışında".*
*Ay kövrək, a ipək, a çiçək nənə,*
*Uzaqdan elə bil qara kölgəsən,*
*Ay qara çadrada ağbirçək nənə.*

*Ağlama, ağlama, bir də ağlama*
*İçərişəhərin içindən keçən*
*Gənclik illərinin uzaqlığına,*
*Sevgi günlərinin yazıqlığına...*
*Ağlama, elçisi atangillərdən*
*Səni "qoparmayan" oğlan üçün sən.*
*Ağlama bu manşır qala dibindən*
*Səni aparmayan oğlan üçün sən...*

*"Bu qala daşlı qala,*
*Çınqıllı, daşlı qala".*
*İnsafmı ömrün boyu*
*Gözlərin yaşlı qala?!*

*1982*



*İllüstrasiyanın müəllifi: Brilyant Ramazanqızı*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 9 sentyabr.- S. 27